

# ASTARANIN turizm marşrutları

***Bildiyimiz kimi, son dövr ərzində ölkəmizdə turizm sənayesinin dünya standartları səviyyəsində inkişaf etdirilməsi istiqamətində aparılan bir sıra işlər, ölkəmizə gələn turistlərin marağına və saylarının ildən-ilə artmasına səbəb olmuşdur.***

Bu yönümdə aparılan düzgün siyasət nəticəsində isə gələcəkdə Azərbaycanın turizm sənayesi milli iqtisadiyyatımızın gəlir gətirən sahələrindən birinə çevriləcəyi real həqiqətdir. Bu baxımdan, xarici və daxili turistlərə yüksək səviyyəli xidmətin göstərilməsi üçün onların maraqlarını cəlb edən turist marşrutlarının hazırlanması, ölkəmiz haqqında dolğun məlumatın verilməsi, Azərbaycanın mədəni və mənəvi dəyərlərini nümayiş etdirmək üçün, xalqımızın unudulmaqda olan bəzi el sənətkarlığı növlərinin bərpası və inkişaf etdirilməsi vacib şərtlərdən biridir.

Bununla əlaqədar Respublikamızın rayonlarında olduğu kimi, Astara rayonunda da turizmin inkişafı ilə bağlı tarix və mədəniyyət abidələri, təbiət və digər görməli yerlər, eləcə də bəzi el sənətkarlığı nümunələrinin hazırlandığı mərhələlər barədə məlumatlar dürüstləşdirilmiş, dövlət mühafizəsinə götürülmüş, daşınmaz tarix və mədəniyyət abidələrinin inventar nömrəsi, tarixi də əks olunmaqla adı yazılmış lövhələr üzərinə vurulmuşdur.

Ümumiyyətlə, rayonda turistlərin gəlişinin təminatı ilə bağlı 7 marşrut müəyyən edilmişdir ki, həmin marşrutlar rayonun aşağıda göstərilən yaşayış məntəqələrini əhatə edir:

**1. Astara şəhəri:**

1. Astara tarix-diyarşünaslıq muzeyi
2. Fəxri Xiyaban
3. Qəhrəmanlar Alleyası
4. Nizami Gəncəvinin heykəli.
5. Rus pravoslav kilsəsi.
6. Tacir evi - XIX əsr.
7. Tacir evi - XIX əsr /Redaksiya binası/.
8. Şəhidlər Xiyabanı.
9. Daş ev /Uşaq gənclər idman məktəbi/.
10. Məscid – XIX əsr.
11. Böyük Vətən müharibəsində həlak olmuş həmyerlilərin Xatirə Abidə Kompleksi /Ana Abidəsi/.
12. Giləkəran məscidi - XIX əsr.
13. «Savalan» istirahət kompleksi.
14. Mehmanxanalar: - «Min bir gecə», «Gömrük» köhnə mehmanxana / «Heydər baba» mehmanxanası/.
15. «Cənub-Terminal» müəssisəsi.

**2. Astara Telman magistral yolu boyu**

*Ərçivan kəndi:*

1. Gəzəndaş türbəsi - XIII əsr
2. Yanar bulaq
3. Böyük Vətən müharibəsində həlak olanların Xatirə Kompleksi
4. Ləm /yay istirahət evi/
5. Kərbəlayi Həmid Abdulla hamamı - 1806-cı il
6. Yaşayış evi - 1900-cu il /Hacı Cəfərin evi/
7. Məhəmməd Hənifə məscidi - XIX əsr /Özülü deyilənlərə görə 1499-cu ildə qoyulmuşdur/
8. Həmin məscidin həyətindəki qədim türbə qalıqları.

*Maşxan kəndi*

9. Əhməd İbn Kərimin türbəsi - 1472-ci il
10. Baba Hümmət Kurqanı - tunc dövrü
11. Maşxan məscidi - 1905-ci il
12. Seyid Kərimin türbəsi - orta əsr. /Mövlanə Seyid Kərim Seyid Əhmədin atası/
13. Seyid Kərimin türbəsində ziyarətgah və pir
14. Şəhidlər Kompleksi

**3. Astara-Qamışlıq magistral yolu boyu:**

1. Xəzər dənizi boyunca magistral yol. /Xəzərin Astara akvatoriyası/.
2. Balıq zavodu kompleksi - XX əsrin əvvəli.
3. Rus hərbi qarnizonunun yerləşdiyi ərazi
4. Kələdəhnə yaşayış massivində iki müasir məscid
5. Dəmiryol stansiyasının qədim tipli binası.

*Şahağacı kəndi:*

6. Məscid - XIX əsr
7. Ləm - XIX əsr
8. Kurqan və Pir - tunc dövrü /Rəcəbəli qəbirstanlığı/
9. Çar Rusiyasının dəniz sahilindəki hərbi kazarması
10. Böyük Vətən müharibəsində həlak olanların Xatirə Kompleksi

**4. Gəzəndaş-İstisu dağ yolu boyu:**

1. Kurqan və qədim yeraltı yol - tunc dövrü, orta əsrlər.
2. Məscid - XIX əsr
3. Qədim qəbirstanlıq.

Səncərədi kəndi

4. Məscid - XIX əsr
5. Kurqan - tunc dövrü

Alaşa kəndi:

6. Qədim qəbirstanlıq və kurqanlar - tunc dövrü

